# Göy Qurşağı

**XÜSUSİ BURAXILIŞ**
**2020**




**Baş redaktor:** Şəhla Qəmbərova
**Redaktor:** Sevinc Nuruqızı
**Korrektor:** İlahə Quliyeva
**Bədii tərtibat:** Aqil Tağıyev



Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.



Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879, Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.
Qeydiyyat nömrəsi: № 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.
Təşkilati dəstək: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**web:** www.clb.az
**facebook:** fb.com/clb.az
**twitter.com/**childlibbaku
**instagram:** firidunbey_kocerlikitabxanasi
**youtube:** F.Köçərli adına
Respublika Uşaq Kitabxanası

# Qış... Qar... Quşlar...

**Sevinc Nuruqızı**

*Yer gümüşdü, yoxsa ki*
*Ələnən qar gümüşdü?!*
*Qar dənələri qaçdı*
*Bir-birilə ötüşdü...*

*Kimsə bir ovuc ulduz*
*Göyüzünə çilədi...*
*Kimsə ələk götürdü*
*Elə hey qar ələdi...*

*Cığır oldu ağappaq*
*Yol bir anda ağardı...*
*Elə bildim çiçəkli*
*Bəmbəyaz bir nağıldı...*

*Günəş də tez çəkildi*
*Buludlarda əridi...*
*Bu gün qar dənələri*
*Ağappaqdi, iridi...*

*Duman gəldi, süd kimi*
*Kölgələndi, asıldı...*
*Dağlar susdu, astaca*
*Dumanlığa qısıldı...*

*Ay çıxdı, ağ qar üstə*
*Bir ağ zolaq saldı, heyyy...*
*Ağ zolaqda ağappaq*
*Arzular yol aldı, heyyy...*

*Quşlar qartopasına*
*Dönüb, ipə düzüldü...*
*Nənələr nağıl dedi*
*Körpə gözlər süzüldü...*



## Baş redaktordan



**Şəhla Qəmbərova**
*F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru,*
*Əməkdar mədəniyyət işçisi*

Dostlar, Sizlərlə 2019- cu ilin sonuncu ayının son günlərində görüşürük...

Gün keçdi, ay dolandı, il sona yetdi. Bu ildə həyata keçirdiyimiz layihə və tədbirlərlə sizləri sevindirməyə çalışdıq. Yurdumuzun gözəl, ağıllı və istedadlı balaları, Sizin istək və arzularınız bizim üçün çox dəyərlidir. 2019-cu il, gözəl, rəngarəng yeni yaşantılar ili oldu. İl boyunca fəaliyyətimiz dövründə, keçirtdiyimiz rəsm sərgiləri, konsert proqramları, nağıl-tamaşalar, ədəbi müsabiqələr, layihələr və. s bu kimi bir-birindən maraqlı tədbirlər sizin asudə vaxtınızı səmərəli keçirmək və əylənərək öyrənmək məqsədi ilə təşkil edilmişdir.

2020-ci il görüşümüzə hansı sürprizlərlə gəlir?! Nə olursa olsun, yenə də, həyat davam edəcək. Dərslərinizdə müvəffəqiyyətlər, işlərimizdə uğurlar qazanmaq niyyəti ilə var qüvvəmizlə irəliyə doğru addımlayaq. Məramımız isə hər zaman olduğu kimi yorulmadan çalışmaq olacaq. Kitab və kitabxananın inkişafınızda əvəzsiz rolunu hər fürsətdə vurğulayaraq zamanından, məkanından asılı olmayaraq kitabları qorumağı və onları sevərək mütaliə etməyinizi arzu edirəm. Sevimli uşaqlar, 2019-cü ili artıq geridə buraxdıq. 2020-ci ilə  xoş gəldin demək istəyirəm. Yeni ili daim həmrəy olaraq, səmərəli keçirmək hər birimizin arzusudur. Qarşıdan gələn bütün illər sizə möhkəm cansağlığı, sevinc, ruzi-bərəkət, bolluca uğur, aydın zəka və nailiyyətlər gətirsin.

# Qaranlıqlar kitabla işıqlanar...

## Və yaxud hər uşağın nağıl payı




*Harada kitab var, orada biz varıq... Əlbəttə, biz varıq - F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Kitablarımızla, jurnallarımızla, kuklalarımızla... Və mehriban, fədakar kitabxanaçılarımızla... F.Köçərli adına Respublika Uşaq Kitabxanası VI kitab sərgi-yarmarkasına 500-ə yaxın dünya ədəbiyyatı və Azərbaycan uşaq ədəbiyyatından nümünələrilə qatılmışdı. Ruh yüksəkliyi və kitaba sevgi ilə qarşılamışdı... Heç belə möhtəşəm kitab bayramını diqqətdən qaçırmaq olar?!*





Kitab sərgisi sentyabrın 27-də baş tutdu. Bakı İdman Sarayında təşkil olunan və üç gün boyunca davam edən sərgi-yarmarka böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuşdu. Tədbirdə, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə "Hər uşağın nağıl payı" adı altında görmə, eşitmə və nitq qabiliyyəti zəif, sağlamlıq imkanları məhdud uşaqlar üçün "Bərpanəşr" layihəsi çərçivəsində Brayl əlifbası ilə nəşr olunan 11 adda kitab və 10 adda elektron kitabın təqdimatı keçirildi.











Təqdimat Azərbaycan Respublikasının dövlət himninin jest dilinə tərcüməsi ilə başladı. Kitabxananın direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova "Bərpanəşr" layihəsi çərçivəsində nəşr olunan elektron kitablar haqqında geniş məlumat verdi.





Layihənin həyata keçirilməsində əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə tam və səmərəli inteqrasiyasını təmin etmək olduğunu bildirdi. Layihə Respublika Gözdən Əlillər Kitabxanası, "Araxçın" MMC/Silent Communication təşkilatının birgə əməkdaşlığı nəticəsində ərsəyə gəlib. Azərbaycan Respublikası Təhsil Nazirliyi Uşaq müdafiəsi şöbəsinin müdiri Cəmilə Tağıyeva , 5 saylı Sağlamlıq İmkanları Məhdud internat məktəbin direktoru İradə Vəzirova çıxışlarında bu nəşrlərin sağlamlıq imkanları məhdud uşaqların intellektual inkişafı və cəmiyyətə inteqrasiyası baxımından vacibliyini vurğuladılar.




Görmə əngəlli 14 yaşlı Səməd Novruzov İtalyan musiqisindən bir vokal nümunə ilə çıxış etdi. Uşaq yazıçısı Sevinc Nuruqızı layihə haqqında öz fikirlərini bildirdi və hər kəsə uğurlar arzuladı. Layihənin həyata keçirilməsində əməyi olan "Araxçın" MMC/Silent Communication komandasının rəhbəri, təlimçi, jest dili tərcüməçisi Şamil Sabirzadə və sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 N-li xüsusi internat məktəbinin müəllimi Könül Quliyeva mətni səsləndirən Zahirə Dadaşovaya, Ceyran Cəfərliyə, səs rejissoru Şəkər Tağıyevaya, operator Aygül Hüseynovaya və montajçı Anar Həsənova öz təşəkkürlərini bildirdilər. Tədbirin sonunda 2, 3 və 5 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbinin kitabxanasına təşkilatçılar tərəfindən çap olunan kitab və elektron kitablar, DVD disklər təqdim edildi.






formatlar
YER PLANETI
ЛОТТЕ










2019
26 F.Köçərli adına Respublika Uşaq Kitabxanası

# “Mütaliə sevən dostlar evi”








Bir vaxtlar heyvanlar hamısı təbiətdə yaşayırdı. Elə insan da... Sonra insan özünə yurd- yuva saldı... Əməyini və yaşayışını yüngülləşdirmək üçün başladı vəhşi hey- vanları əhliləşdirməyə... Əvvəlcə yük heyvanlarını əhliləşdirdi. Tarlada işlətdi, ara- baya qoşdu, yer şumlatdı, odun daşıtdı... Qidasını rəngarəng etmək, süfrəsini zəngin- ləşdirmək üçün inək, qoyun, keçi saxladı, toyuq-cücə, qaz- ördək bəslədi. Sonra yəqin ki, təhlükəsizliyini qorumaq üçün iti əhliləşdirdi... Mənəvi dünyasını zənginləşdir- mək, mərhəmət və sevgisini nümayiş etdirmək üçün evinin qapılarını pişiyə açdı... Belə bir ifadə də yaratdı bu heyvanları bir araya gətirmək üçün - "ev heyvanı"... Və başladı ev heyvanlarını qorumağa, sevməyə, qayğısını çəkməyə... İnsan heyvanın ən yaxın dostu ola bildi...

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Xətai rayonunda yerləşən 27 nömrəli tam orta məktəbin 4- cü sinif şagirdləri ilə birgə “Mütaliə sevən dostlar evi” adı altında “Ümumdünya Ev Heyvanları Günü” ilə əlaqədar IDEA Heyvanlara Qayğı Mərkəzinə ekskursiya etdilər. “Ümumdünya Ev Heyvanları Günü” –nun təsis edilməsi ideyası Beynəlxalq Təbiəti Mühafizə Hərəkatı tərəfdar- larının 1931-ci ildə Florensiyada (İtaliya) keçirilmiş konqresində irəli sürülüb. Müxtəlif ekoloji təşkilatlar və təbiəti mühafizə cəmiyyətləri insanlarda bütün canlıların, o cümlədən ev heyvan- larının taleyi üçün məsuliyyət hissi tərbiyə etməyə yönəlmiş müxtəlif tədbirlər keçirməyə hazır olduqlarını bildirirdi.



Hər il qeyd olunan, insanlar tərəfindən əhliləşdirilmiş bütün heyvanlara həsr edilən bu bayram “dördayaqlı dostlarımız”ın taleyinə görə məsuliyyət daşıdığımızı bütün bəşəriyyətə xatırlatmışdır. Ekskursiya çərçivəsində, mərkəzin əməkdaşı uşaqlara mərkəz haqqında, onun yaranma tarixi, məqsədi və fəaliyyəti barədə ətraflı məlumat verdi. Ekskursiyanın təşkilində əsas məqsəd, uşaqlarda, heyvanlara qarşı məhəbbət, diqqət və qayğı aşılamaq idi. Sonra uşaqlar, mərkəzdə küçələrdən yığılmış, xüsusi qayğı və qulluq edilmiş it və pişiklərlə səmərəli vaxt keçirdilər. Sonda IDEA Heyvanlara Qayğı Mərkəzinə kitabxana tərəfindən kitab və jurnallar hədiyyə edildi.









# QIŞIN NƏĞMƏSİ

## Abdulla Şaiq

Saqqalı ağ, saçı ağ,
Əlində zorba çomaq
Gəldi qocalmış baba,
Şaxta baba, qış baba.
Gurladı boğnuq səsi,
Uğuldadı nəğməsi:
"Ay uşaqlar, mən qışam,
Burda mənzil salmışam.
Mən gələndə yağan qar,
Onu sevər uşaqlar.
Qardan adam yaparaq,
Oynarlar qar toplaraq.
Soyuq qış axşamında,
İsti ocaq başında,
Nağıl deyər nənələr,
Qulaq asar nəvələr"...
Çöldə ayaz, boran, qar.
Qışın da bir dövrü var.

# QIŞ

## Məmməd Rahim

Qar bürüyüb dağları,
Bağçaları, bağları.
Donub çaylar, bulaqlar,
Buz bağlayıb budaqlar,
Qış belə dövran sürür,
Əllərilə öldürür
Zərərli böcəkləri.
Qışa pis deyənmi var?

Taxılı örtməsə qar
Bir qalın yorğan kimi,
Sünbüllər ümman kimi
Zəmidə dalğalanmaz.
Qış bizə nemət verir,
Dad verir, ləzzət verir.
Qar düşməsə çöllərə,
Qovuşmarıq güllərə.
Sevimli bahar olmaz,
Bağçalarda bar olmaz.
Qış bizə nemət verir,
Dad verir, ləzzət verir.



# YENİ İL

## Xanımana Əlibəyli

Sevinin, a dostlar, sevinin bu gün
Yenə də bir yeni illə görüşdük.
Qəmi unutduran, kədəri danan
Neçə şirin-şirin dillə görüşdük.

Yenə də bir vərəq doldu ömürdən,
Bir qamçı da dəydi göy atımıza.
Bir çəngə gül-çiçək yoldu ömürdən,
Şənlik gətirənlər ovqatımıza.

Ürək odlandıqca gözlər yaş süzər,
Yaşlardır söndürən ürəkdə odu.
Olsa da həyatın sonucu kədər,
Sevincdə, gülüşdə, dəmdədir dadı.

Uşaq cavanlaşır, qocalır cavan,
Yaş üstə yaş gəlir, hər yeni ildə.
Qalacaq yenə də sirli, sehirli
Hər solan çiçək də, açılan gül də.

Sevinin, a dostlar, sevinin, bu gün
Sevinclər bəzəsin anlarınızı.
Gəlsin xoş xəbərlər hey dəstə-dəstə,
Müjdələr oxşasın günlərinizi.



# QIŞ GECƏSİNDƏ

## Mirmehdi Seyidzadə

Qış gəlibdir, ağ örtüyə
Bürünübdür bayır- baca,
Noğul səpir başımıza
Şaxta baba qar yağdıqca.
Qar basmışdır düzənləri,
Dərələri, dik dağları.
Mənzillərdə soba yanır,
İsindirir otaqları.
Bığlı pişik öz yerində
Uzanaraq mürgüləyir.
Odur, yenə qarı nənə
Nəvəsinə nağıl deyir.
Nənəsinin qucağında
Əyləşərək deyir Elman:

-Necə oldu yekə divdə
Güclü çıxdı kiçik Cırtdan?
Nənə deyir: - Ağrın alim,
Güc bilikdə, ağıldadır.
Elə bilmə, qəşəng balam,
Qəhrəmanlıq nağıldadır.
Çoxdur bizim ölkəmizdə
Adlı- sanlı qəhrəmanlar.
Xalq onların şərəfinə
Yaratmış gözəl dastanlar.
Körpə quzum, illər keçər,
Böyüyərsən bir gün sən də,
Hünərinlə qəhrəmanlıq
Göstərərsən bu vətəndə.
Elə bu vaxt pəncərədən
Yavaş- yavaş boylanır ay.
Elman yumur gözlərini,
Nənə ona deyir laylay.



# 3b-nin yolka şənliyi

Reyhan Yusifqızı

Sinif otağı rəngbərəng kağızlarla, şarlarla başdan-başa bəzədilmiş, ortada iri yolka qurulmuşdu. Rəngli oyuncaqların asıldığı bəzəkli yolkanın başında qırmızı ulduz yanırdı. 3b sinfinin şagirdləri yeni il şənliyinə hazırlaşırdılar. Hamı Ramin müəllimi gözləyirdi. Toğrul dedi:

- Əslində, biz yeni ilin gəlişini Novruz bayramında qeyd edirik, martın 21-də gecə ilə gündüz bərabərləşir və yeni il başlayır.

Onda bəs bu qeyd etdiyimiz nədir? - Nigar təəccübləndi.

- Yeni təqvim ili! Hər il yanvarın 1-də təqvim dəyişir. Sabah artıq

2017-ci il olacaq.

- Onda belə demək lazımdır: “Yeni təqvim iliniz mübarək!”

Gülüşdülər.

- Salam, uşaqlar! - Qəflətən, eşidilən gur səs uşaqları çaşdırdı.

- Şaxta baba!

Uşaqlar özlərini itirdilər. Heç kim günün bu saatında Şaxta babanı gözləmirdi. Əsasına söykənmiş Şaxta baba gülümsədi:

- Heç sevinmədiniz. Bəlkə qayıdıb gedim?

- Yox-yox! – Yer-yerdən qışqırdılar. – Xoş gəlmisiniz, Şaxta baba! Keçin içəri!

Uşaqlar əl-ayağa düşdülər. Hətta kimsə qonağa oturmaq təklif etdi.

- İşim çoxdu, - dedi Şaxta baba, - Mən bu gün çox yerləri dolaşmalıyam. Pəncərədən yolkanızı gördüm. Dedim, sizə də baş çəkim... Yeni iliniz mübarək!

Uşaqlar xorla qışqırdılar:

- Çox sağ olun!

- Sizə bir neçə sualım olacaq.

Cəmil dilxor oldu:

- Yenə sual? Biz hədiyyə gözləyirdik...

Şaxta baba güldü:

- O da olacaq: hədiyyələr və sürpriz. Amma əvvəlcə suallara cavab verməlisiz.

- Nə etməli, deyin gəlsin, Şaxta müəllim...

Gülüş qopdu. Uşaqlar birinci suala diqqətlə qulaq asdılar:

- Yeni il dünyada nə vaxtdan bayram edilir?

Cavab ləngimədi:

- Ta qədim zamanlardan! Yeni ilin tarixi bizim eradan əvvələ gedib çıxır.

- Afərin, uşaqlar! Çoxları bu bayramı xristian dini ilə əlaqələndirir, lakin belə deyil. Yeni ilin tarixi xristianlıqdan əvvələ gedib çıxır və heç bir dinlə bağlı deyil. Hələ bizim eradan əvvəl qədim Misir sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağacını evlərinə gətirirdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi hesab olunurdu. Romalılar əkinçilik allahının şərəfinə evlərini yarpaqlarla bəzəyirdilər. Orta əsrlərdə isə dekabrın 25-də qeyd edilən “Adəm və Həvva bayramı”nın rəmzi kimi həmişəyaşıl ağacları qırmızı almalarla bəzəyirdilər. Zaman keçdikcə küknar ağaclarının rəngli kağız, meyvə və şirniyyatlarla bəzədilirməsi adəti bütün Avropaya və Amerikaya yayıldı. İndi hər yeni il bir çox ölkələrdə küknar ağacları bəzədilir.

- Biz də küknar ağacı bəzəmişik! – deyə Fərid yolkanın işıqlarını yandırdı.

- Çox gözəl! Növbəti sualım küknar ağacı haqqındadır. – Şaxta baba davam etdi. – Uşaqlar, nə bilirsiniz bu ağac haqda?

- Mən bilirəm! – Balaca boylu Sevinc arxadan səsləndi. Aralanıb ona yol verdilər. Zarafat deyildi, bu balaca qız sinfin şərəfini qoruyacaqdı.

- Küknar şam fəsiləsinə aid iynəyarpaqlı ağacdır, uzunömürlüdür, 250-300, bəzən isə 500 il yaşayır. Dünyada küknarın 50 növü məlumdur.

Uşaqlar əl çaldılar.

- Bəs Azərbaycanda? – Cəmil soruşdu, - Eh, dünyadan xəbəriniz var, amma bilmirsiniz ki, Azərbaycanda küknarın cəmi bir növü olur!

- Elə bircə növü? – İnci təəccübləndi.

- O da olmasa, biz romalılar kimi, otağı yarpaqlarla bəzəyərdik! – Toğrul zarafata saldı. – Ya da qırmızı almalarla!

- Ya da küknar ağacını başqa ölkələrdən gətirərdik. Məsələn, Amerikadan!

- Amerikada hər il Ağ evin qarşısında küknar fənərləri yandırırlar...

- Bilirsiz, Yaponlar Tokioda qızıldan yolka qurublar. Onun oyuncaqları qızıldan hazırlanmış Disney qəhrəmanları imiş....

Danışıqlar birdən kəsildi. Hamının gözü Şaxta babaya zilləndi – o, papağını, saç saqqalını çıxarırdı. Bir dəqiqə sonra hər şey aydın oldu: Ramin müəllim güləgülə şagirdlərinin qarşısında dayanmışdı...

3b-nin Yeni il şənliyi belə başladı.



# Yeni kitablar






Yuxudan oyanan səyyahlar Dünyanı böyük bir Ay kimi görürdülər. Dünyanın hər tərəfini buludlar bürümüşdü. Ay isə həm daha yaxın, həm də daha böyük görünürdü.




Bu kitab canınıza üşütmə salacaq, ayağınızı geyinib, taksiyə atılaraq hava limanına getməyinizə səbəb olacaq. Onda ən yaxşı nağılların müdhiş vahiməsi var və o şedevrdir.




İstedadlı uşaq yazıçısı Corciya Binq ilk debütünü bu kitabla edib. Kitab Molli Munun qəribə macəralarından bəhs edir. Yetimxanada yaşayan Molli Mun özündə anadangəlmə hipnozetmə bacarığı kəşf edir.




Əsəri olduqca maraqlı süjetlər, macəra və fantastik formada quran yazıçı bizi əhatə edən bitkilər və həşəratlar haqqında cəlbedici əhvalatları sənətkarlıqla qələmə almışdır.




Əsər uzun müddət ata-anasının kim olduğunu bilməyən, yetim, yad adamların arasında dolaşan balaca Reminin həyatından və sərgüzəştlərindən bəhs edir.




Bu kitabın bütün qəhrəmanları realdır, ikisindən başqa. Ponto Qrossda həbsxanada olduğu müddətdə gözü ilə gördükləri əsasında əsəri yazıb.




Bu, xarici dilləri öyrənməyə başlayanlar üçün Azərbaycan, rus, ingilis, alman və fransız dillərində olan illüstrasiyalı lüğətdir.




Kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulan "Gündəlik sözlər" kitabı 500- dən çox sadə sözdən ibarət gözəl və maraqlı bir vəsaitdir.




Kitabda 15 rus nağılı toplanıb.




Kitabdakı hekayələrin qəhrəmanları sizsiniz, sizin dostlarınız, rəfiqələrinizdir. Onları o saat tanıyacaq, onlarla dostlaşacaqsınız.




Vafa Tarnovskanın uşaqlar üçün yenidən işlədiyi bu nağıllar XIV əsr Suriya əlyazmalarına aid səkkiz macəra əsasında qələmə alınıb.




Bu məşhur kitab maraqlı qız olan Polliannanın həyat hekayəsinin davamıdır. Pozitiv düşüncə tərzinə malik qız ətrafındakılara xoşbəxtlik bəxş edir.




Ayrı-ayrı hekayələrdən ibarə olsa da, bu, vahid süjetli bütöv bir əsər təsiri bağışlayır. Əsərin əsas qəhrəmanları Cip adlı oğlan və Yanika adlı qızdır.




Borclarını ödəmək üçün möhtəşəm dərəcədə gözəl olan albalı bağlı malikanələrini satmaq məcburiyyətində olan Qayev ailəsi, düşdüyü bu qəribə vəziyyəti qəbul edə bilmir.




Alisa güzgünün arxa üzündəki baş-ayaq bir dünyaya çox maraqlı və həyəcanlı səyahətə yollanır. Bu səyahətdə onu sirli çevrilmələrlə dolu möcüzələr, mistik hadisələr gözləyir.




Bu kitabda Rəşid bə Əfəndizadənin uşaqlar üçün yazılmış şeirləri, kiçik hekayələri, pyesləri toplanıb.




Bu əsər yazıldıqdan sonra psixologiya elmində "Pollianna prinsipi" termini tətbiq edilməyə başlayıb. "Pollianna prinsipi" – psixoloji fenomendir.




Kitab 41 mövzunu əhatə edir. Uşaqlar, o cümlədən ingilis dilini öyrənən hər kəs üçün nəzərdə tutulub.

# Зимним вечером новогодние сказки

Severek ve merak ederek okuyacağınız, elinizden bırakmayacağınız 10 kitaplık bu dizi özgün doğa, çocuk, çevre ve hayvan konulu birbirleriyle bağlantılı öykülerden oluşmaktadır.







На страницах книги ребенка ждут занимательные истории о празднике. Она научит ребенка мастерить красивые рождественские подарки и сувениры, показывать фокусы и подскажет, как написать письмо Деду Морозу.




Winner of Kate Greenaway Medal, this classic picture book has been treasured by generations for more than thirty years. Raymond Briggs`s irreverent look at Christmas is one of his best- loved picture books.




Follow Santa and his reindeer on their journey in this delightful book. Use the stickers to fill each picture with the magic of Christmas.




Под каким бы именем ни ходил этот старый волшебник, он всегда способен исполнить наше самое заветное желание.




3 Christmas Stories Starring Grover, Oscar the Grouch, and the Rest of the sesame Street Gang

Come celebrate Christmas with all your Sesame Street friends!




1000 замечательных идей. Новый год в детской компании – сборник новогодних игр, конкурсов, сценариев для детей.




Из этой книги вы узнаете, как зовут Дедов Морозов у разных народов, как празднуют Новый год в разных странах.




В этой книге собраны новогодние стихи и сказки.




Read all of Stanley`s hilarious adventures: flat Stanley *Stanley and the Magic lamp* Stanley in Space * Invisible Stanley * Stanley, Flat Again!






It was very nearly Christmas and Rabbit was sending invitations to all her friends. `One each for Duck and Bear, Dog and Mole and, of course, one for Mouse.`



The next morning, in a little house deep in the forest, an invitation arrived, and it said:

Dear Mouse, Please come and spend Christmas with me. Come as soon as you can. Love Rabbit.

`Hurray!` shouted Mouse. `That`s just how I wished I`d be spending Christmas. Now, I`ve got so much to do before I can set off on the journey to Rabbit`s house.`

On the furthest edge of the lake, Bear had also received an invitation. **`Whoopee!`** he yelled. `I`m on my way!` He hurriedly threw some things into a bag and set off.

High up on the top of the big snowy hill, another invitation had arrived. `Ah-ha,` smiled Dog. `Now I can try out my new sledge.`

Over on the other side of the lake, Duck was already very busy. `I need to bake a cake, a pudding, pies, tarts and sweets… I can`t wait to spend Christmas at Rabbit`s house!`

And down at the railway station, standing on the platform, Mole was already waiting for his train. `How nice,` he said. `I shall enjoy spending Christmas with my friends.`

Meanwhile, Mouse had started packing. `I`ll need clothes for cold weather and warm, and for rain and snow. And I`ll take towels and sheets, some blankets, pans and plates, extra shoes, hats and scarves…`

But the suitcase popped open. It just wound`t stay shut. `Oh no,` squealed Mouse. `How am I going to carry it all?`

Bear had set out across the lake. He loved to skate and he was very good at it.

What a pleasant journey,` thought Mole as he gazed out of the train window.

Meanwhile, as Mouse went to wash up the breakfast things, he tripped over his suitcase and went flying!

`Oh no, oh no!` Mouse squealed, cold tea dripping from his whiskers. `Now I`ll have to have a bath before I go.`

Dog tore down the big snowy hill on his sledge, ears flaying. **`Wheeeee!`** he cried. And at the bottom, Duck was waiting. `At last,` she thought. `Here he is. Hurry up, Dog!`

Meanwhile, Mouse had finally finished packing when… **`The bath!`** he yelled. `I forgot about the bath!`




Poor Mouse, there was an awful lot of mopping up to do. Rabbit was busy too, getting everything ready. `I hope they arrive soon, then we can decorate the tree and hang up our stockings. What a wonderful Christmas this will be.` Bear and Dog and Duck and Mole were very nearly there. It wouldn`t be long before they all arrived, **all except...**







Poor Mouse. He had finally set out, but it was snowing so heavily he could hardly move, and it was starting to get dark. He was beginning to feel scared. `Oh, I wish I was already at Rabbit`s house,` he squeaked. Suddenly… **Whomp!** a great pile of snow dropped off a branch. `Help!` came the muffled cry. By now all the others had arrived at Rabbit`s house. `Ah, here you are!` she beamed. `Now Christmas can really begin.` Meanwhile, Mouse had dug himself out of the snow. But it was dark and he was cold and wet.



`It`s impossible,` he sobbed. `I just can`t go on. It`s too far, it`s too late. And all I wished for was to spend Christmas with my friends.` Slowly he trudged home, back through the snow.



His friends were having a wonderful time. They hung up the decorations, placed the presents under the tree and put all the tasty treats out on plates.

`But where is Mouse?` asked Rabbit. `Wherever can he have got to? Mouse had gone to bed.

`My Christmas wish will never come true now.` His tears fell as he pulled the covers over his head.

Just then there was a ring at the door. **`Ding Dong!`**

`Oh dear, oh dear who can that be?` Mouse sniffed. `It`s too late for the postman and it`s not early enough for the milkman.`

**`SURPRISE!`** everyone yelled. `Come on. Mouse, you`re late. We` ve come to take you to Rabbit`s house for Christmas.`

And they walked to the end of the lane, past the old fir tree, round the corner, and there was Rabbit`s house.

`Whatever took you so long?` asked Mole. `Yoy practically live on Rabbit`s doorstep!`

`Now we can really start enjoying Christmas.` said Rabbit. And everyone agreed. They sang songs, played games, ate treats and told stories. `Ahem, `said Mouse. `My dear friends, I thought my Christmas wish would never come true. Thank you for making this the best Christmas ever.`

Later that night, Mouse was woken by a magical sound. Shooting across the sky was the one final visitor everyone wishes to see at Christmas.

**Happy Christmas, Mouse!**



# Fikrin bizim üçün maraqlıdır

**1.** Adın, soyadın, doğulduğun gün, ay, il.

**2.** Hansı məktəbdə, sinifdə oxuyursan?

**3.** "Göy qurşağı" jurnalında ən çox xoşuna gələn məqalə hansıdır?

**4.** Öz şəklini jurnalımızın səhifələrində görmək istəyərdinmi?

**5.** Kitabxanaya tez-tez gəlirsən?
Kitabxananın hansı guşəsi, sərgisi və tədbiri daha çox xoşuna gəlir?

**6.** Bizim daimi oxucumuz olduğuna əminsən?
Bu il oxuduğun kitablardan ən çox xoşuna gələn hansı olub?

**7.** Şəkil çəkməyi bacarırsan?
Əgər bacarırsansa, ən sevimli əsərə illüstrasiyalar çəkmək maraqlı olmazmı?!

**8.** Hansı Azərbaycan yazıçılarını tanıyır və sevirsən?

**9.** Komikslər xoşuna gəlir? Hansılar daha çox?

**10.** Bizim gənc oxucular fantastika, macəra janrında oxumağı sevir.
Sən də bu janrları sevirsən və hansı janrda yazmağa cəhd etmisən?

**11.** Hansı sevimli əsər əsasında film çəkilməsini istəyərdin?

**12.** Sevmədiyin ədəbi qəhrəman varmı?

**13.** Hansısa bir adaya gedərsənsə, özünlə götürəcəyin üç kitab hansı olar?

**14.** Hansı yazıçı ilə görüşüb, ona hansı sualı vermək istəyərdin?

**15.** Yeni ildə hansı kitabı hədiyyə almağı arzu edirsən?

**16.** Sənin öz hekayən, şeirin, essen varmı?
Əgər varsa, onu bizim anketlə eyni zərfə qoyub, paylaşmaq istəyərsən?

**17.** Jurnalımıza arzuların.
Əgər onu şəxsən sən hazırlasaydın, necə olardı?







1. ..........................................................................................................................................

2. ..........................................................................................................................................

3. ..........................................................................................................................................

4. ..........................................................................................................................................

5. ..........................................................................................................................................

6. ..........................................................................................................................................

7. ..........................................................................................................................................

8. ..........................................................................................................................................

9. ..........................................................................................................................................

10. ..........................................................................................................................................

11. ..........................................................................................................................................

12. ..........................................................................................................................................

13. ..........................................................................................................................................

14. ..........................................................................................................................................

15. ..........................................................................................................................................

16. ..........................................................................................................................................

17. ..........................................................................................................................................




Sven Nurdkvist

# Petsonun evində Milad bayramı

ixtisarla

Nəhayət ki, havalar istiləşdi! Bayırda çox soyuq olduğundan artıq neçə gün idi ki, Petson mağazaya gedə bilmirdi. Milad bayramı axşamına lap az qalmışdı, evdə isə yeməyə heç nə yox idi. Hələ meşədən şam ağacı kəsib gətirmək, darçınlı peçenye bişirmək, ev-eşiyi təmizləmək...

Pişik balası Findus da bütün günü açar deşiyindən bayıra baxır, sahibinin onu həyətə buraxacağı günü gözləyirdi.

– Petson! – Findus qışqırdı. – Gedək, meşədən şam ağacı gətirək.

– Şam ağacı gətirməyə sabah da getmək olar.

Bu gün isə gedib milad bazarlığı etmək lazımdır. Çünki sabah mağazalar işləməyəcək. Hə, bir də bu gün həyətin qarını kürüməliyik.

Həyətə çıxdılar. Petson toyuq hininə və pəyəyə gedən yolun qarını kürüdü. Sonra dedi:

– Gedib meşədən küknar budaqları da gətirmək lazımdır. Pilləkənlərə döşəmək üçün. Çox sürüşkəndirlər. Findus mənimlə getmək istəyirəm.

Bir saniyədən sonra onlar balta və kirşə olan anbarda idilər.

Pentos qarın içi ilə gedir, Findusu da ardınca aparırdı. Anbarın arxasındakı təpəyə qalxdılar. Petson çoxlu küknar budaqları kəsib kirşəyə yığdı. İndi təpədən düşüb getmək lazımdır. Birdən Petsonun ayağı sürüşdü və o kirşənin üstünə yıxıldı. Kirşə böyük sürətlə təpə aşağı hərəkət etməyə başladı. Kirşə daş hasara dəyib çevrildi. Petson qarın üstünə yıxıldı. Findusun bu sürüşmə xoşuna gəlmişdi.

– Gəl yenə də sürüşək! – deyə o qışqırırdı.

Petsonun isə ayağı bərk əzilmişdi.

– Oy, necə ağrayır. Ayağını yerə basa bilmirəm.

Petson təpəni, kirşəni, hasarı danlayırdı. Findus isə deyirdi:

– Milad bayramı ərəfəsində hirslənmək olmaz!

Petson çətinliklə evə çatdı:

– Başıma gələnə bax, – o, ayağına baxıb gileyləndi. – Kaş mağazalar bağlanana kimi ayağın sağalaydı. Yoxsa Milad bayramı günü yeməyə heç nəyimizi olmayacaq.

Biz hələ meşədən şam ağacı gətirməli, ev-eşiyi təmizləməli, mətbəxin döşəməsini yuyub təmizləməliydik.

– Ura-a-a, – Findus qışqırdı, – döşəməni özüm yuyacam.

Bir neçə saniyədən sonra Findus vedrə və döşəmə yuyan fırçanı gətirdi. Petson onun gətirdiyi vedrəyə ılıq su və sabun tökdü.

– Dayan, – Petson qışqırdı.

Petson divarda oturmamış Findus vedrədəki bütün suyu döşəməyə tökdü. Sonra hrppanıb fırçanın üstünə çıxdı. Və üzməyə başladı... O fırça üstündə sürüşməyi əla bacarırdı. Bir ayağı üstündə dayanır, sərt dönmələr edir, suyu ətrafa sıçradırdı.

Beş dəqiqədən sonra Findus güclə nəfəs ala-ala dedi:

– Hazırdır.

– Heç nə hazır deyil, balaca.

Başladığın işi bitirməlisən. Döşəmənin suyunu qurula və parıldayana qədər sil. Mən xəstə ayağımla sənə heç bir kömək edə bilmərəm.

– Mən balaca pişik balasıyam axı. Çox yorulmuşam. Sən sürünə-sürünə döşəmənin suyunu qurulaya bilərsən.

– Yox Findus. Mən səni yalnız ruhlandıra bilərəm. Qalx ayağa. Döşəməsilən əskini götür. Döşəməyə tökdüyün sabunlu suyu yığ və qurula. Sonra birlikdə peçenye bişirərik.

Hava artıq qaralmışdı. Findus əskini vedrəyə atdı, masanın üstünə hoppanıb qışqırdı:

– Hazırdır. Oyan, Petson. Sildim qurtardım. Dur, peçenye bişirək.

Bir həftə qabaq onlar peçenye bişirmişdilər. Xəmirin bir hissəsi artıq qalmışdı. Petson xəmiri qoyduğu qabın ağzını açanda mat qaldı.

– Nə az qalıb. Bu xəmir niyə belə balacalaşıb?

– Xəmirin başına həmişə qəribə işlər gəlir. Bəzən o qəfildən yoxa çıxır. – Findus Petsonun sualına belə cavab verdi.

– Bəlkə onu hansısa qarınqulu pişik balası içəri ötürür? – Petson dedi.

– Bəlkə də. – Findus razılaşdı. – Amma xəmiri pişik balasının sahibi də çırpışdıra bilər.

– O da ola bilər.

Petson qalan balaca xəmiri masanın üzərində yaydı. Findus xəmirdən balaca peçenyelər kəsdi. Qalanını isə çiy-çiy yedi. Cəmi bir neçə dənə peçenye alındı.

Sonra Petsonla Findus pəncərədə öz akslərinə baxa-baxa kofe içdilər. Hava qaralırdı.

– Deyəsən, bu gün mağazaya gedə bilməyəcəm. sabah da bağlı olacaq. Deməli biz Milad bayramında şam süfrəsi arxasında əyləşməyəcəyik, – Petson təəssüflə dedi.

– Nə danışırsan? Milad bayramında yeməksiz qalmaq? Düyü sıyığı yeməmək, ət, balıq, balaca kolbasalar... Bütün bunlar olmayacaq?! – Findus həyəcanlandı.

– Tamam ac qalmarıq. Bir az yerkökümüz və bir banka balıq konserimiz var. Yumurta da bişirə bilərik. – Petson onu sakitləşdirmək istədi.

– Oy-oy-oy... Milad bayramında yerkökü! – deyə Findus zarıdı.

– Zarıma. Heç nə olmaz. İş belə gətirib.

Amma hədiyyə alacaqsan.

Findus zarımağı dayandırdı. Gözlərini Petsona zillədi:









– O nə hədiyyədir elə?

– Səhər görərsən. İndi isə ayağımı sarıyıb gedim yatım.

Petson getdi. Findus düşünməyə başladı: «Mən də Petsona nə isə bağışlamalıyam». Qaranlıq olmasına baxmayaraq, Findus hədiyyə gətirməyə getdi. Anbara getdi. Kartof soymaq üçün işlədilən bıçağı gətirib dəsmala bükdü. Üstündən iplə sarıdı.

Səhəri gün Petsonun ayağı hələ də ağrayırdı.

– İki günə yəqin ki, sağalar, – ayağını o yan-bu yana tərpədən Petson dedi. – Heç gedib meşədən şam ağacı da gətirə bilməyəcəyik.

– Nə- - ə- - - ə! – Findus miyoldadı. – Bizim Milad Şam Ağacımız olmayacaq! Daha bunun harası Milad oldu ki?! Petson yulaf sıyığı bişirdi. Səhər yeməyi səssiz keçdi. Evdə artıq sıyıq bişirməyə süd də yox idi.

Birdən qapı döyüldü. Qonşunun oğlu Aksel Qustavson idi:

– Milad bayramınız mübarək! – Aksel dedi. – İstəyirdi qan kürüməyə kömək edim, amma gördüm ki, özün kürümüsən!

Birdən gözü Petsonun sarınmış ayağına sataşdı:

– Sənə nə olub?

– Sürüşüb yıxılmışam.

– Çox pis. Hələ sənə evdən çıxmaq olmaz. Bəs bayramı necə qarşılayacaqsınız? – Aksel narahat oldu.

– Hər şey yaxşı olacaq! – Petson donquldandı.

Findus dözmədi:

– Heç nə yaxşı olmayacaq. Evdə bir tikə yemək yoxdu. Bircə yerkökü var. Nə peçenye, nə ət, nə balıq. Şam ağacı yoxdur, sobaya atmağa odun azalıb...

– Dayan, Findus, – Petson onu sakitləşdirməyə çalışdı. – Birtəhər keçinərik. Çox hayıf ki, sıyıq bişirməyə süd yoxdur. Bir də odun qurtarıb... Aksel, bir az odun yola bilərsən?

Aksel xeyli odun yardı, üstəlik onlara süd də gətirdi.

Sonra Petson dünən meşədə qırdıqları küknar budaqlarından milad yolkası düzəltdi. Uzun bir taxta parçasında burğu ilə deşiklər açdı. Və küknar budaqlarını deşiklərə keçirdi.

– Findus, get yolka oyuncaqlarını yığdığım yeşiyi gətir.

– Yeşik çardaqdadır.

– İşə bir bax. Bu ayaqla mən çardağa qalxa bilmərəm.

– Bəs onda nə edək? – Findus kədərləndi.

– Rəngli və parlaq nə varsa, onunla da bəzəyək. Sən qaç anbarı axtar, mən də evi.

Az sonra yolka artıq hazır idi. Budaqlarından bir neçə qaşıq, hərarətölçən, saat, çini inək heykəli, oyuncaq meymun, taxta yonqarları, vellosiped farası, rəngsaz malası asılmışdı.

Qapı yenə döyüldü. Aksel idi. Süd gətirmişdi. Onun ardınca Qustavsonun arvadı Elza gəldi. Əlində səbət var idi.

– Petson, bayramın mübarək. Aksel dedi ayağın burxulub. Bazarlıq edə bilməmisən. Səninçün bəzi şeylər gətirdim.

Elza səbətdən ət, kələm, qızardılmış küftələr, çörək, bir qazan ət suyu, peçenye, quru əriştə, meyvə şirələri çıxartdı. Petson kövrəlmişdi. O bilmirdi Elzaya və Akselə təşəkkürünü necə bildirsin.

– Gör nə qədər ərzaq yığıb gətirmisiniz... Çox sağ olun...

– Nuş olsun. İndi isə səninlə kofe içmək istəyirik.

Sonra Qustavson da gəldi. O da qonşusunu təbrik edib, kofe ilə peçenye masası arxasına əyləşdi.

Qustavsonlar getməyə hazırlaşanda qapı yenidən döyüldü. Xanım Anderson dolu zənbillə gəlmişdi:

– Petson, Milad bayramın mübarək! – Xanım Anderson Petsonu təbrik etdi və səbətindəki balıq və kolbasanı çıxardıb mətbəx masasının üstünə qoydu. Qonaqlar kolbasanın dadına baxdılar. Elza zarafatla dedi:

– Necə dadlı kolbasadır. Mənim də ayağım sınsaydı, pis olmazdı.

Sonra qonaqlar ət suyunun dadına baxdılar. Qonaqların sayı getdikcə çoxalırdı. Lindqrenlər gəlmişdilər. Anna Lindqrenin bişirdiyi peçenye çox ləzzətli idi. İşə bir bax. Yunsonlar və Nilsonun uşaqları da hərəsi bir səbətlə qapıdan girdilər:

– Bu nə işdir başına gəlib. Petson? Biz eşitdik ki,





sən heç yerə çıxa bilmirsən, soyuq və aclıqla başbaşasan. Amma daxman istidir. Masanın da üstü yemək-içməklə doludur. Çox şad olduq. Doğrudan da, Petsonun daxmasında çoxdandır bu qədər qonaq olmamışdı.

Hamı gedəndən sonra daxmada yenə sakitlik idi. Hava qaralmışdı. Petson və Findus şamları yandırdılar. Petson Findusa oyuncaq hədiyyə etdi, Findus Petsona bıçaq. Sonra onlar işıqları sayrışan yolkanın yanında oturdular. Petson kresloda, Findus Petsonun qucağında:

– Çox qeyri-adi Milad bayramı oldu. Bizim əla qonşularımız var. Düzdürmü Findus?

Findusdan cavab gəlmədi. O artıq yatmışdı. Və yuxuda gülümsəyirdi.

Tərcümə edən: **Sevinc Nuruqızı**

# Dünyanı rənglərə boyayaq



"Cik-cik xanım" Mehdizadə Həlimə



"Yoxsul qoca ilə vəzirin nağılı" Həsənova Zemfira



Mürsəlova Sezən



"Günəşin nağılı" Bağırzadə Yeganə

"Tülkü və hacıleylək" Əlizadə Suada





"Göyçək Fatma" Əlizadə İlahə

"Əhmədin nağılı" Pənahova Güldanə





"Qarı və buzov" Baxışova Nəzrin



"Şəngülüm Şüngülüm Məngülüm" Nur Həyat



"Məlikməmməd" Əmirli Gülxanım



"Lovğa Kərgədan" Cəlilova Aytəkin









Sarıyeva Şəlalə, 307 saylı tam orta məktəb, 7-ci sinif şagirdi



Keyt di Kamillo

Əvvəli ötən saylarımızda

# Dovşan Edvardın qeyri-adi səyahəti

## İyirmi ikinci bölüm

Hava toranlaşırdı... Edvard isə yolboyu irəliləyirdi. O sərbəst, heç kimin köməyi olmadan addımlayırdı, bir ayağını götürür, o birini qoyurdu, bir-birinin ardınca... Əynində qırmızı ipəkdən son dəbdə tikilmiş əla kostyum var idi. O, səki ilə bir xeyli irəliləyib, hər iki tərəfi hündür ağaclarla əhatə olunmuş yola çıxdı. Bu yol işıqlı pəncərələri olan evə aparırdı.

"Mən bu evi tanıyıram, - deyə Edvard düşündü. - Bu evdə Abilin yaşayır. Misir küçəsindəki evdir".

Elə bu vaxt evdən hürə-hürə, quyruğunu bulaya-bulaya Lüsi çıxdı.

- Ey, Lüsi, yerində dur, uzan, - bir kişi asta səslə dedi.

Edvard yuxarı boylandı və gördü ki, qapıda dayanan Öküzdür.

- Maloun, salam, - Öküz dedi. - Salam, dovşan əti ilə bişirilmiş boyat piroq. Biz səni gözləyirdik.

Öküz qapını taybatay açdı və Edvard evə girdi. Orada həm Abilin, həm Nelli, həm Lorens, həm də Brays var idi.

– Süzanna! - Nelli ucadan dedi.

– Bubençik! - Brays qışqırdı.

– Edvard, - Abilin dedi. Və əllərini ona uzatdı. Amma Edvard yerindən tərpənmədi. O, otağı dönə-dönə gözdən keçirtdi.

– Sən Sara-Rutu axtarırsan? - Brays soruşdu. Edvard onun dediyini təsdiq etdi.

– O zaman küçəyə çıxmalı olacaqsan, - Brays dedi.

Və onlar küçəyə çıxdılar. Həm Lüsi, həm Öküz, həm Nelli, həm Lorens, həm Brays, həm Abilin, həm də Edvard.

– Bax oradadır, - Brays əli ilə ulduzları göstərdi.

– Düz deyir. - Lorens dedi. - O bürc "Sara-Rut" adlanır. - O, Edvardı qaldırıb çiyninə qoydu. - Bax, görürsən, oradadır?"

Edvardın daxilində bir kədər baş qaldırdı. Bu bir qədər şirin, bir az da tanış hiss idi. Sara-Rut var idi, amma niyə bu qədər uzaqdaydı? Əgər mənim qanadlarım olsaydı, düz yanına uçardım.

Qəflətən Edvard gözlərinin qırağı ilə gördü ki, arxasında nə isə tərpənir.

O çiyninin üstündən dönüb arxaya baxdı. Qanadları çıxmışdı. İndiyə qədər gördüyü qanadların ən gözəli idi bu qanadlar. Narıncı, çəhrayı, qırmızı, mavi... Qanadlar onun kürəyində idi. Onun öz qanadları idi. Nə əsrarəngiz bir gecəydi! O heç kəsin köməyi olmadan gəzə bilirdi. Onun təzə, son dəbdə kostyumu var idi. İndi də üstəgəl qanadlar.

İşə bir bax! Niyə bunları gec anlayıb?! İndi o, hara istəsə uça bilərdi, nə istəsə edə bilərdi.

Ürəyi sinəsində çırpındı. O qanadlandı... Lorensin çiynindən uçub havaya qalxdı. Ulduzlu səmaya doğru uçdu. Birbaşa Sara-Rutun yanına...

– Yooox, - deyə Abilin qışqırdı.

– Onu tutun! - Braysın səsi ətrafa yayıldı. Amma Edvard uçdu, uçdu, getdikcə lap yüksəyə qalxdı. Lüsi hürdü.

– Maloun! – Öküz qışqırdı. Və elə tullandı ki, Edvardı havadaca tutdu, ayaqlarından dartıb yerə saldı və dedi, - Sənin hələ getmək vaxtın deyil.

– Getmə! Yanımızda qal. - Abilin yalvardı.

Edvard qanadlarını tərpətdi, yenidən uçmağa cəhd etdi. Amma bacarmadı. Öküz onun möhkəm-möhkəm tutub torpağa sıxmışdı.

– Qal burada, bizimlə. - Abilin durmadan təkrar edirdi. Edvard qəhərləndi və ağladı.

– Mən dözə bilməyəcəm. Mən yenidən onu itirmək istəmirəm. - Nelli dedi.

– Mən də, - Abilin dedi. - Mənim ürəyim partlayar.

Lüsi isə yaş burnunu Edvardın boynuna sürtdü. Və onun gözyaşlarını yaladı...

Rus dilindən çevirdi:
**Sevinc Nuruqızı**



# İzlər...





***Qar üstünə iz düşüb***
***Gah əyri, gah düz düşüb...***
***Ovçü izə düşübdür***
***Çölə-düzə düşübdür...***

*Qar yağmış meşə ağ kağızdır... Üstündəki izlər onun yazıları. Kim nə yazıb, bilirsənmi? Bilmirsənsə, mənimlə birlikdə araşdıraq. Baxaq görək kim keçibdir bu yoldan... Kim bu izləri dolaşdırıb, kim ovçunu aldadıb... Kim yuvasına hansı cığırla gedib?*

Ovçular bir baxışla izin hansı canlıya aid olduğunu təyin edə bilir.

Əgər izləri qruplaşdırsaq, onları daha tez ayırd edə bilərik.

**Kirpi növlü izlər...**

Bu iz qrupu əməlli-başlı uzun və aralı barmaqlarla yadda qalır. İz yolu enli, addım qısadır. Bu iz qrupuna kirpi, susiçanı, xomyaklar aid edilir.

**Yenot növlü izlər...**

Barmaqların geniş, aralı izlərilə xarakterizə edilir. Ondatra pəncələrinin izini xatırladır, amma ondatradan fərqli olaraq, arxada açılan novda quyruq izi olmur.

**Pişik növlü izlər...**

Bu izləri pişikkimilər fəsiləsinin bütün üzvləri qoyur. Onlar ov arxasınca elə sürətlə qaçır ki, dırnaq izi buraxmır. Amma dörd pəncənin dördünün də izi aydın seçilir...



**Köstəbək növlü izlər...**

Bu izlər qar örtüyü üzərində çətin seçilir. Köstəbəkkimilər yuvadan çox az çıxır, o qədər asta yeriyir ki, izlər göz ilə seçilmir. Qar örtüyünə zəndlə baxsan, yalnız yan-yana qoşa arx kimi iz görə bilərsiniz. Arxlarda arxa pəncələr seçilir, addımlar olduqca qısadır.

**Siçan növlü izlər...**

Kiçik gəmiricilərə aiddir. Onlar çəkidə yüngül olduğu üçün izləri zəifdir. Qoşa dal ayaqlarını izi ilə qabaq ayaqlar arasında məsafə azdır. Arxasınca nov kimi sürünən quyruq izi gedir.

**İt növlü izlər...**

Bu növə tezqaçan heyvanların izi aid edilir. Ön pəncələr beşbarmaqlıdır. Amma birinci barmaq hündürdə yerləşdiyi üçün iz buraxmır. Arxa pəncələr dördbarmaqlıdır. Bu izlər bir xətt boyunca düzülür.

**Ayı növlü izlər...**

Bu izləri nəhəng və ortaölçülü heyvanlar qoyur. Arxa pəncələrin izi qabaq pəncələrdən böyük olur. Ayı, porsuq, oxlu kirpi və s. heyvanların izi bu növə aiddir.



*Günlərin bir günü uzaq, daha doğrusu, 1974-cü ilin bir günü, Monrealda Kanada poçt idarələrindən birinin əməkdaşlarının nəzərindən bir incə məqam qaçmadı. Santa Klausa yazılan bütün məktublar Ünvana çatmayan məktublar bölməsində yığılıb qalmışdı. Çünki bu məktublarda doğru ünvan yazılmırdı. Və təəccüblü deyil ki, bütün ölkə üzrə yüzlərlə poçt işçisi könüllü olaraq Santaya gələn mktublara cavab yazmaq həvəsində olduğunu bildirdi. 1983-cü ildə bu fəaliyyət rəsmi status qazandı və 2005-ci ilədək 15 min poçt işçisi yarım milyon məktub cavablandırmışdı. Ən maraqlısı isə bu idi ki, kanadalılar Şaxta Baba üçün poçt indeksi də düşünüb tapmışdılar:*




Bu, bu gün üçün Santa Klausun ən doğru ünvanıdır. Çünki Yerin Şimal Maqnit qütbü həqiqətən Kanadada yerləşir. İstəsəniz, siz də yaza bilərsiniz. Poçt işçiləri bütün uşaqlara öz yazdıqları dildə cavab verə bilir.

ABŞ-da bu proqram artıq 65 ildir ki, fəaliyyətdədir. Bu ölkədə Santanın başqa ünvanı var:"Santa Klausa, Şimal qütbü, 10000"

Siz də yazın. Ya Kanadaya, ya da ABŞ-a... Nə fərqi var?! "Göy qurşağı"na da yaza bilərsiniz...



Salam əziz Şaxta baba! Necəsən? Yəqin ki, bu yaxınlarda bizim tərəflərə gələcəksən. Uşaqlar səndən hədiyyə gözləyirlər. Biz isə səndən qar istəyirik. İki ildi ki, bizim şəhərimizə qar yağmır. Əgər bacarsan, vətənin Laplandiyadan bizə qar gətir. Qar qıza da çoxlu-çoxlu salamlar!

Həliməxatun və İbrahim



Здравствуй, Дедушка Мороз!

Меня зовут Рена. Мне 9 лет, я живу в городе Баку и учусь в 4 классе.

Этот год для меня был таким же насыщенным и интересным, как и прошлый год!

Спасибо за прошлогодний подарок под ёлкой.

Дорогой дедушка, давно мечтаю о наборе " Пупси Слайм", надеюсь, моя мечта исполнится в Новый Год! А ещё пусть все детки,у которых нет семьи и те детки , которые болеют будут здоровы и приобретут семью!

Дедушка Мороз, а также волшебные помощники, поздравляю Вас со снежной счастливой зимой и весёлого настроения! Передай, пожалуйста, «привет» своим оленям. Я люблю смотреть рождественские мультики, в который они летают.

Жду тебя, дедушка, к себе в гости!



Dear Santa,

My name is Oktay. I`m 4 years old. I`ve been well this year. That's why I think that I deserve a present for Christmas. I know that you have to visit millions of children around the world and it's difficult to carry all presents at once. But, if you ever pass by our town, please visit my house and bring me one special present. Please bring me a monster truck car with control remover for Christmas.

Merry Christmas and Happy New Year, Santa Claus



Дорогой Дедушка Мороз!

Меня зовут Нармин. Мне 8 лет, учусь во 2 классе. Я знаю, что ты приходишь только к тем детям, которые хорошо относятся к остальным, слушаются родителей и стараются в школе. Я весь год примерно себя вела, слушалась родителей, хорошо училась в школе. Пожалуйста, подари мне на Новый год Планшет. Заранее благодарю тебя! Я обещаю, что не буду целый день пользоваться планшетом.

Перед сном я оставлю тебе немного печенья и молока. Ты бываешь очень голоден, объезжая весь мир за ночь.

# Волшебная снежинка

**Татьяна Домаренок**

Как-то перед Новым годом решил Сережа написать письмо Деду Морозу и попросить у него для себя подарок. «А вдруг пришлет?» – думал мальчик. Через две недели пришел ответ. Дед Мороз поздравлял Сережу , всех его друзей и родных с наступающим Новым годом. Но вместо подарка в конверте лежала одна единственная, вырезанная из серебряной фольги снежинка. Дед Мороз уверял, что это не простая снежинка, и она превратится в желанный подарок. Только для этого в Новогоднюю ночь ее нужно будет положить под елку и сказать: «Снежинка! Подари мне, пожалуйста, Новогодний подарок!» В письме Сережа просил Деда Мороза подарить ему фотоаппарат или подзорную трубу. Но то, что это устроит какая-то снежинка из фольги, мальчик не верил. Он рассказал об этот маме.

Мама сказала:

– А почему бы и нет. В Новогоднюю ночь случаются чудеса. Об этом все знают. Вот бы и Катюше что-нибудь подарил Дед Мороз!

Да! А Сережа-то совсем забыл о своей маленькой двухлетней сестренке. Она, конечно же, тоже захочет подарок, и ей будет обидно, что Дед Мороз подарит подарок только ему.

Думал, думал Сережа и решил, что попросит у снежинки подарок не для себя, а для сестрички. «Она младше меня, ей подарок больше нужен», – решил мальчик.

В Новогоднюю ночь он положил снежинку под елку и сказал:

– Волшебная снежинка! Подари, пожалуйста, не мне, а моей сестричке Новогодний подарок.

Мама услышала это и сказала:

– Молодец, Сережа! Катенька у нас в семье самая маленькая. Пусть этот подарок достанется ей!

Наутро Сережа заглянул под елку, но не поверил своим глазам. Там лежал не один, а целых два подарка: один для Катюши – большой пушистый длинноухий заяц, второй для него – упакованный в новенькую коробочку фотоаппарат. Да и снежинка из серебряной фольги не исчезла. Она улеглась на одну из зеленых веточек Новогодней елки.



Sən hələ də Santa Klausun varlığına inanırsansa, deməli uşaqlığın rahat və isti dünyasındasan.




Ana ətirli, ata qüvvətli, şipşirin nağıllar və macəralar dolu dünyasında. Amma əgər inanırsansa...

**Bu zərfin içinə qoya bilərsən məktubunu....**

# QIŞ GƏLİBDİR, QIŞ GƏLİB

Qış gəlib, dostum... Sənin ən sevimli fəslin. Məncə, soyuq hava sənin fəallığına zərrəcə mane ola bilməz, Əksinə daha hərəkətli, daha həyat dolu edər səni. Kim desə ki, qartopu oynamaqdan gözəl oyun var, inanma. Ən həyacanlı, nəfəstutan, sevimli və sosial oyun, məncə elə qartopudur. "Sosial oyun" ifadəsi səni təəccübləndirməsin. Soaial oyundur, çünki dostlarla oynanılır, bütün həyat oynayır, böyüklü-kiçikli... İnsanları bir araya gətirir, doğmalaşdırır, dostlaşdırır, sevimli edir... Qaradamını da birlikdə düzəlt... Bədəni, başı, qolları... Sonra hərə öz yumruladığı qar topasını qoysun üst-üstə... Sonra burun, gözlər, papaq. Vəssalam...

Amma daha ciddi, daha məsuliyyətli qış idman öyunları var.







## UŞAQLAR ÜÇÜN XİZƏKSÜRMƏ QIŞ İDMAN OYUNU.

Həm oğlanlar, həm də qızlar 5-6 yaşından bu idman növü ilə məşğul ola bilər. Əminəm ki, bu idman növü səndə özünəgüvən, qələbəyə və məğlubiyyətə doğru münasibət formalaşdıracaq. Həm də əzələlərini inkişaf etdirəcək, nəfəsini qaydaya salacaq, onurğa sütununu möhkəmlədəcək...

## UŞAQLAR ÜÇÜN XOKKEY

Xokkeylə 9 yaşından məşğul ola bilərsən. Amma 4 yaşından konkiyə öyrəşməlisən. Unutma! Arıq olmalısan!. Böyük çəki ilə konki üzərində dayanmaq çətin olar. Komanda da oynamaq bacarığın olmalıdır! Dözümlü olmalısan!



## UŞAQLAR ÜÇÜN FİQURLU KONKİSÜRMƏ

Qızlar fiqurlu konkisürməyə 6 yaşından başlamalıdır. Oğlanlar bir-iki il gec. Amma bu oyun üçün konki üzərinə lap tez çıxmalısan. Ən azından, xokkeydə olduğundan tez. Bu qış idman növü sənə tarazlığı saxlamaq və çəldlik bacarığı bəxş edəcək. Ayaq əzələlərin güclənəcək. Qan dövranın tənzimlənəcək, maddələr mübadiləsi qaydaya düşəcək.











Məzəli qar adamları ilə Yeni il qeyri-adi olar... Yəqin razılaşarsınız mənimlə... Həm də "Yeni ili gözləməkdən gözümüzün kökü saraldı" demək istəmirsinizsə, başınızı əl işləri ilə qatın. Məsələn, qaradamları düzəldin. Bir neçə dənə. Rəngbərəng... Müxtəlif üz ifadələri ilə - təəccüblənmiş, sevinmiş, qorxmuş, yuxulamış, acıqlanmış və s... Həm də evdən bayıra çıxmadan düzəldin. Köhnə, burnu cırılmış corablarınızdan... Geyinilməyən köynəyinizin alabəzək düymələri və lazımsız parça kəsikləri ilə...

Başladıq! Corabların burnunu kəsin. Tərs tərəfdən iplə bağlayıb torba halına salın. İçinə düyü tökün. Dəyirmi hala gələn kimi ortadan yenə iplə bağlayın. Yenə içinə düyü töküb, nisbətən kiçik dairə düzəldin... Qaradamının bədəni və başı hazırdır. Göz və qaş qoyun, burun düzəldin, boynuna parça kəsiyini şərf kimi bağlayıb, yaxasına düymələr düzməyi unutmayın! Corabın kəsilmiş burun hissəsindən papaq da düzəldə bilərsiniz...

Sizə uğurlar! Yeni ilə yeni qaradamlar ilə!

